***TARİX***

https://doi.org/10.59849/3006-1342.2025.2.3
UOT 908 (479.24)

*Nərgiz Aydın qızı Rəsulova*
*Gəncə Dövlət Universiteti*
*Dosent, tarix üzrə fəlsəfə doktoru,*
*AMEA Gəncə Bölməsi Diyarşünaslıq İnstitutu*
*Tarix şöbəsinin müdiri*
*E-mail: nararasulova@bk.ru*
*https://orcid.org/0009-0003-8622-5605*

# QARABAĞ XANLIĞI XVIII ƏSR AZƏRBAYCAN DİPLOMATİK ARENASINDA

*XVIII əsrin ortalarında yeni yaranmış Azərbaycan xanlıqları içərisində Azərbaycan ərazisinin əhəmiyyətli hissəsini əhatə edən, əsası Cavanşir oymağının Sarıcalı tayfasından olan Pənahəli xan (1747-1763) tərəfindən qoyulan Qarabağ xanlığı mühüm yer tuturdu. Özündən qat-qat güclü düşmənlər üzərində qələbə çalması Pənahəli xanın şöhrətini və nüfuzunu artırırdı. İbrahimxəlil xanın (1769-1806) hakimiyyəti dövründə Qarabağ xanlığı qüdrətinin ən yüksək zirvəsinə çatdı. Qarabağ xanlığının xarici siyasətində Azərbaycan torpaqlarının birləşdirilməsinə nail olmağa çalışan Urmiya, Şəki, Quba xanlıqları, Osmanlı və Rusiya imperiyaları ilə münasibətlər xüsusi yer tuturdu. Rusiyadan ehtiyat edən Osmanlı dövlətinin Cənubi Qafqazda müdafiə mövqeyinə keçməsi Rusiyanın bölgədə işğalçılıq siyasətini fəallaşdırırdı. 1804-cü ilin yanvarında Gəncə xanlığının işğalından sonra Rusiya imperiyasının növbəti hədəfi Qarabağ xanlığı oldu. Qarabağ sarayında əyan qruplaşmaları arasında mübarizə getdiyi vaxtda müasir silahlarla təchiz edilmiş rus ordusuna müqavimət göstərməyi qeyri-mümkün hesab edən İbrahimxəlil xan 1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığının Rusiyaya ilhaqına razılıq verməli olur.*

*Açar sözlər:* Azərbaycan, Qarabağ xanlığı, Pənahəli xan, İbrahimxəlil xan, Rusiya, işğal

## *Giriş*

XVIII əsrin II yarısı Azərbaycan tarixində xarici müdaxiləçilərə qarşı mübarizənin kəskinləşməsi və xanlıqlar adlanan müstəqil Azərbaycan dövlətlərinin meydana gəlməsi ilə xarakterizə olunur. Azərbaycanda 20 müstəqil xanlığın yaranması təsadüfü deyil, Azərbaycanın dövlət müstəqilliyi uğrunda mübarizəsinin qanuna uyğun davamı, ölkənin obyektiv siyasi-iqtisadi inkişafının və əlverişli beynəlxalq vəziyyətin nəticəsi idi [1, s. 36-54].

Azərbaycan torpaqlarının vahid dovlətdə birləşə bilməməsi ölkənin mədəni, iqtisadi və siyasi inkişafına mane olurdu. Belə bir vəziyyət müxtəlif xarici qüvvələrin Azərbaycana müdaxiləsinin artmasına şərait yaradır və xanlıqların mövqeyini zəiflədərək, onların xarici siyasət xəttinə zərbə vururdu. Qərbi Avropa dövlətləri və Rusiya arasında dünyanın bölüşdürülməsi uğrunda mübarizənin daha da şiddətləndiyi belə bir şəraitdə "..... zəif inkişaf etmiş ölkələr, xüsusi ilə hədsiz təbii sərvətə və böyük strateji coğrafi mövqeyə malik Azərbaycan, rəqabət edən dövlətlər arasında başlıca obyektlərdən biri idi" [13, s.17].

**Qarabağ xanlığının qısa xarakteristikası.** XVIII əsrin ortalarında yeni yaranmış Azərbaycan xanlıqları içərisində Kiçik Qafqazın cənub-şərq çıxıntısında yerləşən və Azərbaycan ərazisinin əhəmiyyətli hissəsini əhatə edən, əsası Cavanşir oymağının Sarıcalı tayfasından olan Pənahəli xan (1747-1763) tərəfindən qoyulan Qarabağ xanlığı mühüm yer tuturdu [29, s. 302] Qarabağ xanlığının yaranmasınadək olan dövrü təsvir edən Əhmədbəy

Cavanşir yazırdı: "Pənahəli xanın əcdadı Məhəmməd xan Kürəkçay,Araz, Əlincəçay, Göyçə gölü arasında, uzunluğu və eni 20 verst olan Qarabağ torpaqlarını aldı və uzun müddət müstəqil şəkildə hökmranlıq etdi" [14, s. 158-159].

Siyasi quruluşuna görə müstəqil dövlətin əsas atributlarına malik olan Qarabağ xanlığına [1, s. 36-54] funksiyalarını kişi xətti üzrə öz nəslinə miras yolu ilə ötürən, qeyri-məhdud hakimiyyətə malik xan başçılıq edirdi. Xanlığın öz idarəsi, sikkəsi və ordusu var idi, müstəqil daxili və xarici siyasət yürürdürdü [2, s. 91].

Qarabağ xanlığı Azərbaycan Səfəvilər dövlətinin bölündüyü dörd inzibati-ərazi vahidlərindən biri olan Qarabağ bəylərbəyliyi sərhədləri daxilində yaradılmışdır. Qarabağ bəylərbəyliyinin mərkəzi - Gəncə olduğuna görə onu bəzən Gəncə bəylərbəyliyi də adlandırırdılar. Qarabağda yerli elatlar (köçəri-maldarlar) olan Cavanşir, Kəbirli, Ziyadoğlu,Qacar, Baharlı türk tayfaları yaşayırdı. Onların arasında Cavanşir tayfasının əmirləri hakim mövqeyə malik idilər. Ziyadoğlu Qacar tayfasının əmirləri mərkəzi Gəncə olan Qarabağ bəylərbəyliyinin irsi başçıları olub, burada təxminən 300 il, yəni XIX əsrin əvvəllərinə qədər hökmranlıq etmişlər [3, s. 26].

**Pənahəli xanın daxili və xarici siyasəti.** Pənahəli xan Cavanşir Qarabağ xanlığının yarandığı ilk illərdən xanlığın möhkəmləndirilməsinə diqqət yetirmiş, digər tərəfdən isə qonşu xanlıqların hücumunun qarşısını almaqla yanaşı öz nüfuzunu artırmaq istəmiş və əsasən də buna nail ola bilmişdi. Özündən qat-qat güclü düşmənlər üzərində qələbə çalması Pənahəli xanın şöhrətini və nüfuzunu artırırdı.

1748-ci ildə Pənahəli xanın Kəbirli mahalında Bayat qalasını inşa etdirməsi Qarabağ məliklərini və Qarabağı özünə tabe etmək niyyətində olan dövrün nüfuzlu hakimi Şəkili Hacı Çələbi xanı narahat edirdi.

Nadir şahın 1736-cı il Muğan qurultayından sonra Qarabağ bəylərbəyiliyinə qarşı cəza tədbiri olaraq məlikliklərə (Xəmsə) daxili idarəetmədə sərbəstlik verməklə, onların Qarabağ bəylərbəyinin tabeçiliyindən çıxarıb Azərbaycan vilayəti hakiminə tabe etdirməsi seperatizm meyllərinə təkan vermişdi. Bu səbəbdən siyasi müstəqillik xülyasına düşən məliklər Pənahəli xanın güclənib öz hakimiyyətini bütün Qarabağ ərazisinə yaymasına müqavimət göstərirdilər. Onlar güclü hərbi qüvvəyə malik Hacı Çələbini Pənahəli xana qarşı çıxmağa təhrik etsələr də Çələbi xan məğlub olub geri qayıtdı.

Bundan sonra Pənahəli xan Xəmsə məliklərinin bölüşdürücülük fəaliyyətinə qarşı mübarizəyə başladı. Alban məliklərinin xan hakimiyyətinə qarşı mübarizəsi siyasi xarakter daşıyırdı. Onların bəzi Azərbaycan xanlarına, xüsusən də Şəki xanına Pənahəli xana qarşı birgə hərəkətlə bağlı müraciəti bunun bilavasitə sübutudur [13, s. 44].

Vərəndə məliyi Şahnəzər xoşluqla Pənahəli xanın hakimiyyətini qəbul etdi [6, s. 76]. Xaçın məlikliyi də Qarabağ xanından asılı vəziyyətə düşdü [20, s. 35]. Digər məlumatlara görə isə, Xaçın məliyi Ulubab Ballıca oymağı yanında qızğın müqavimət göstərdiyi üçün oğlanları ilə birlikdə qılıncdan keçirildi. Dizaq məliyi Yeqan öz oğulları və qohumları ilə birlikdə ilk öncə kəskin müqavimət göstərmiş, lakin onların bir hissəsi qırılmış, bir hissəsi isə İslam dinini qəbul etmişdi. Çiləbörd məliyi Allahqulu isə Pənahəli xanın təbəəliyini qəbul etmişdi [14, s. 19-20]. Xəmsə məliklərinin mərkəzi xan hakimiyyətinə tabe etdirilməsi ətrafdakı elatların bir hissəsinin xoşluqla, digər hissəsinin isə zor gücünə xanın hakimiyyətini qəbul etməsinə səbəb oldu. Bundan sonra Qarabağ xanı öz hakimiyyətini ətrafa yaymağa başladı. O, Gəncə, Qaradağ, Ərdəbil və Naxçıvan xanlarını öz təsiri altına alaraq, mülklərini cənub-şərqə və cənub-qərbə tərəf genişləndirməklə Tatev, Sisyan, Qafan, Mehri mahallarını özünə tabe etdi [20, s. 35-36].

Bu hadisələri təsvir edən dövrün Azərbaycan tarixçilərindən Rzaqulu bəy Mirzə Camal yazırdı: "Belə bir zamanda mərhum Pənah xan, Gəncə, İrəvan, Naxçıvan, Qaradağ və Ərdəbil vilayətləri ilə dostluq etmək və o yerlərin xanlarını öz tərəfinə çəkmək fikrinə düşdü. Az

müddət içərisində onların bəzisini zorla, bəzisini elçiliklə, bir parasını da yaxınlıq və qohumluq vasitəsilə özünə tabe etdi" [30, s. 214; 4, s. 37]. 1749-50-ci illər arasında Gəncəyə hücum edib şəhərin bir hissəsini tutan Pənahəli xan Gəncə xanı Şahverdi xandan 450 tümən bac alıb geri döndü [16, s. 39].

Azərbaycan xanlıqları arasında çəkişmələrin davam etməsi daxildə və beynəlxalq münasibətlər sistemində Azərbaycanın mövqeyini tamamilə zəiflədirdi. Şimali Azərbaycan xanlıqları içərisində ən güclü xanlıqlardan olan Şəki xanlığının nüfuzunun artması Kartli-Kaxetiya çarlığını narahat etdiyindən Qarabağ və Gəncə xanlıqlarını daim Şəki xanlığına qarşı qaldırmağa çalışırdı [17, s. 21]. Mirzə Adıgözəl bəy öz "Qarabağnamə"sində bu hadisəni belə şərh edirdi: "Pənahəli xan getdikcə güclənməkdə olan Şəki xanlığının onun xanlığını özünə tabe edə biləcəyindən ehtiyat edərək, ona qarşı ittifaq yaratmağa girişdi. O, ilk növbədə Qaradağ xanı Kazım xanı, Naxçıvan xanı Heydərqulu xanı və Gəncə xanı Şahverdi xanı öz yanına dəvət etdi, məsləhət məclisi qurdu.... Qonşuluğundakı Azərbaycan xanlıqlarını özünə tabe etmək niyyətində olan Kartli-Kaxetiya çarı II İrakli də onlara qoşuldu..." [4, s. 38]. Birləşmiş qüvvələrlə Hacı Çələbi xan arasında baş verən Qızılqaya döyüşündə Azərbaycan xanlarını hiylə ilə əsir götürən II İrakli Çələbi xan tərəfindən məğlub edildi. Lakin Gürcüstan valisi İrakli Çələbi xanın azad etdiyi ərazilərə təyin etdiyi oğlu Ağakişi bəyi sıxışdıraraq, Gəncə və Qarabağın bir çox ərazilərini qarət etdi [18, s. 42-43].

Pənahəli xan Qarabağ xanlığının yarandığını elan etdikdən sonra başlıca vəzifəsi onun möhkəmlənməsinə nail olmaq idi. Lakin strateji əhəmiyyətli mövqedə yerləşən Qarabağa sahib olmaq arzusu ilə xanlıq ərazisinə bir çox hücümlar olmuşdu. 1757-ci ildə Məhəmməd Həsən xan Qacar Şuşa üzərinə hücum etsə də tuta bilməmişdi. 1759-cu ildə isə Urmiyalı Fətəli xan Əfşar hücum etmiş və Qarabağ uğrunda 8 ay davam edən mübarizə nəticəsində Qarabağ xanlığını Urmiya xanlığından asılılığı qəbul etməyə məcbur etmişdi [14, s. 117-118].

**İbrahimxəlil xanın hakimiyyəti dövründə Qarabağ xanlığı.** İbrahimxəlil xanın (1769-1806) hakimiyyəti dövründə Qarabağ xanlığı qüdrətinin ən yüksək zirvəsinə çatdı [33, s. 59]. Onun hakimiyyəti dövründə yalnız Azərbaycanın deyil, eləcə də bütün Cənubi Qafqazın ən güclü dövlətlərindən birinə çevrilmiş Qarabağ xanlığı tamamilə müstəqil daxili və xarici siyasət yeridir və hətta İranın ən güclü hakimləri olmuş Kərim xan Zənd və Ağa Məhəmməd şah Qacardan belə çəkinmirdi. Həmçinin Azərbaycanın bir çox xanları tez-tez kömək və himayə üçün Qarabağ xanına müraciət edirdilər.

Diplomatik nigahla böyük hərbi güc əldə edən İbrahimxəlil xan Avarlı Ümmə xanın bacısı Bikə ağayla və Şəkili Səlim xanın bacısı ilə evlənərək öz tərəfdarlarının sayını artırdı. Mirzə Adıgözəl bəy İbrahimxəlil xanın hərbi qüdrətini və siyasi təsirini belə təsvir edirdi: «O, İran, Rum [Türkiyə] padşahlarına və sairə ölkələrin hökmdarlarına boyun əyməyərək, Qaradağ, Şəki, Şirvan, Təbriz, Naxçıvan, Ərdəbil, Xoy, Marağa, İrəvan və hətta İraqla Azərbaycan hüdudunda olan Qaplankuha qədər hökmran oldu. Bu vilayətlərin hakimlərini işdən götürmək və yenisini təyin etmək də onun hökm və fərmanı ilə icra edilirdi» [20, s. 5-102]. Doğrudur, Mirzə Adıgözəl bəy çox böyük mübaliğəyə yol versə də Azərbaycanın Təbriz, Ərdəbil, Qaradağ, Naxçıvan və Gəncə xanlıqlarının uzun müddət Qarabağ xanlığından asılı vəziyyətə düşməsi heç bir şübhə doğurmur.

İbrahimxəlil xan istər diplomatik, istərsə də hərbi vasitələrlə bölgədə Rusiyanın Qafqaz siyasətinin fəallaşmasından öz xeyirlərinə istifadə etməyə çalışan Xəmsə məliklərinin seperatçılıq fəaliyyətlərinə də son qoydu [19, s. 146]. Onu qeyd edək ki, Qarabağ məliklərinin separatçılığı Cənubi Qafqazda özünə xristianlardan ibarət dayaq yaratmağa çalışan Rusiyanın xarici siyasətinə tam uyğun gəlirdi [32, s. 139].

İbrahimxəlil xan xanlıq ərazisində daxili-siyasi sabitlik yaratdıqdan sonra fəal xarici siyasət yürütməyə başladı. Atasının sağlığında ona itaət edən, indi isə asılılığından imtina

edən xanları yenidən tabe etmək qərarına gəldi. Qarabağ xanlığının xarici siyasətində Naxçıvan, Xoy, Təbriz və Qaradağ xanlıqları ilə münasibətlər mühüm yer tuturdu. İbrahimxəlil xanın xarici siyasəti haqqında Mirzə Yusif Qarabaği yazırdı: "O zamanlar Naxçıvan hakimi Kəlbəli xanla İbrahim xanın arasında ədavət törənmişdi. Buna görə də Dağıstan ləzgilərindən kömək istədi və Dağıstan hakimi Ümmə xan köməyinə gəldi. İbrahim xan Qarabağın atları və könüllüləri ilə [cərik] birlikdə hərəkət etdi. Kəlbəli xana cəza vermək qərarına gəldi və onun olduğu Qarababaya yetişərək dayandı. Qoşuna kəndləri və əkin yerlərini dağıtmaq əmrini verdi... Tiflis istiqamətində geri çəkilən Kəlbəli xanın köməyinə, onun xahişi ilə məşhur Zeylan və Qarapapaq kürdlərini göndərən İrəvan xanı çatdı. Ciddi müqavimətə rast gələn İbrahimxəlil xan geri - Qarabağa çəkilməyə məcbur oldu. Buna baxmayaraq Naxçıvana hərbi yürüş, İbrahimxəlil xanın Kəlbəli xanla dostluğunun bünövrəsini qoydu" [22, s. 82].

İbrahimxəlil xan öz qohumu Əsədulla bəyi Təbrizin xan taxtına çıxarmış, Naxçıvan, Qaradağ və bəzi xanlıqlar Qarabağ xanından asılı vəziyyətə düşmüşdülər [32, s. 126]. İbrahimxəlil xan həmin xanlıqlar arasında gedən çəkişmələrdən onlar üzərində öz təsirini gücləndirmək üçün məharətlə istiladə edirdi. Mirzə Adıgözəl bəy yazır: "O [İbrahimxəlil xan - N.R.]. öz qoşunu və zəfər nişanəli Dağıstan əsgərlərinin köməyilə Qaradağ mahalını aldı və Kürdəşt vilayətini alt-üst etdi. Bu vilayətin divar, bürc və hasarlarının xarabaları indi də durur. Əhalisi qaçıb Əhərdə yerləşdi. Kürdəşt xanı Mustafa xan isə əsir düşdü. Qaradağ, Şahsevən və başqa tayfalarm xanlarından bəzisi qohum olduqları üçün bəzisi də zorla onun hökmünə və tabe fərmanına itaət etdilər" [20, s. 49 ]. Mirzə Yusif Qarabağinin də yazdığına görə İbrahimxəlilxəlil xan carlılann yardımı ilə Qaradağ xanının sığınacağı olan Goruşt qalasını alıb dağıtmış, sakinlərini isə başqa yerlərə köçürtmüşdü. Qaradağlı Mustafa xan tutulub Şuşa həbsxanasına salınmışdı. Hətta Qaradağın bəzi mahalları İbrahixəlil xan tərəfindən öz sərkərdələrinə bəxşiş edilibmiş [20, s. 24-25]. XVIII əsrin 80-cı illərinin əvvəllərində İbrahimxəlil xan Kartli-Kaxeti çarı II İrakli və Hüseynəli xanla birlikdə kəngərlilərdən olan Abbasqulu xanı Naxçıvanda hakimiyyətə gətirilməsinə yardım etdi [15, s. 50-51]. Mənbələr göstərir ki, 1787-ci ilin iyun ayında İbrahimxəlil xan artıq Naxçıvanı ələ keçirmişdi.

1795-ci ildə Qarabağ daha qüdrətli düşmənin - Ağa Məhəmməd şah Qacarın basqınına məruz qalır. Lakin qarabağlılar düşmənə mərdliklə müqavimət göstərdilər. Bu haqda rus mayoru Manevgen Qudoviçə göndərdiyi 15 avqust 1795-ci il tarixli məlumatda qeyd edir ki, Ağa Məhəmməd xan Şuşanı mühasirədə saxlayır, lakin hər gün qaladan Qacar qoşunlarına həmlələr edilir [8, s. 257]. Nəhayət, Ağa Məhəmməd şah Şuşanı 33 gün mühasirədə saxlasa da ala bilmədi və Tiflisə yollandı. Bundan sonra İbrahimxəlil xan Ağa Məhəmməd şahın Qarabağ xanlığı üzərinə yürüşü zamanı ona qoşulmuş Gəncə xanlığını cəzalandırmaq qərarına gəldi.

XVIII əsrin 50-ci illərində xarici siyasətdə Azərbaycan torpaqlarının birləşdirilməsinə nail olmağa çalışan Urmiya, Şəki, Quba və Qarabağ xanlıqları bu məqsədlə qonşu dövlətlərlə müvafiq münasibətlər yaratmağa cəhd göstərsələr də, onlar birləşdirmə ideyası ətrafında deyil öz hakimiyyətlərini mərkəzə çevirmək uğrunda mübarizə aparırdılar. Bu isə vahid mərkəziyyət üçün savaşan qüvvələri parçalamış olurdu.

Qarabağ xanlığının xarici siyasətində Quba xanlığı ilə münasibətlər mühüm yer tutsa da bu münasibətlər, əsasən düşmənçilik xarakteri daşıyırdı. Azərbaycanın bu iki qüdrətli xanlığı hər biri bölgədə təkbaşına hegemonluğa can atır, qarşı tərəfə isə öz planlarını həyata keçirməyə mane olan qüvvə kimi baxırdı. Digər tərəfdən, iki xan arasında münasibətlərin daha da kəskinləşməsinə səbəb olan məsələ Qubalı Fətəli xanın qardaşının İbrahimxəlil xanın rəqibinə çevrilmiş qardaşı Mehrəli bəyə yardım göstərərək ona sığınacaq verməsi olmuşdu [32, s. 127].

İbrahimxəlil xan Quba xanının Şamaxı xanlığını ələ keçirdikdən sonra öz hakimiyyətini Qarabağ xanlığına da yaymasından ehtiyat edirdi. Bu haqda S.Bronevski yazırdı: "Quba xanlığının öz hakimiyyətini genişlındirməsinə qarşı çıxan Qarabağlı İbrahimxəlil xan Fətəli xanın dövründə Şamaxı xanlığını ondan almaq və öz oğlanlarını Şamaxı xanlığında hakim etmək niyyətində idi" [9, s. 129]. 1783-cü ilin yazında Qubalı Fətəli xan Qarabağ xanlığı üzərinə növbəti yürüşün uğurunu təmin etmək üçün Şamaxı hakimləri Məhəmməd Səid və Ağası xanlar, Şəkili Əbdülqədir xan, Muğanlı Tale Həsən xan, Tarku hakimi Murtuza Əli, Lənkəranlı Qara xan və daha bir neçə Cənubi Dağıstan hakimlərinin də qüvvələrindən istifadə etmək qərarına gəlmişdi. Əldə olunmuş razılığa görə Fətəli xan Qarabağa hücum edəcəyi təqdirdə İbrahimxəlil xanın əsas müttəfiqi olan Avar hakimi Ümmə xan və Qaraqaytaq usmisi ona arxadan zərbə vurmalı idilər [23, s. 178]. Lakin Avar xanı qohumu İbrahimxəlil xana üç min nəfərlik yardım göndərdi. İbrahimxəlil xan isə düşmən koalisiyanı zəiflətmək üçün yanında saxladığı, bir neçə il əvvəl qətlə yetirilmiş şəkili Hüseyn xanın oğlu Məhəmmədhəsən ağanı carlıların köməyi ilə Şəkidə xan elan etdi [7, s. 165]. Bu tədbirlər qarşısında Qubalı Fətəli xan geri qayıtmalı oldu.

Salyan sultanlığı, Dərbənd, Cavad, Bakı, Şamaxı və Şəki xanlıqlarını öz hakimiyyətinə tabe etmiş Qubalı Fətəli xanın vəfatından sonra Azərbaycanın birləşdirilmiş Şimal-Şərq torpaqları dağılmağa başladı. Bu işdə Fətəli xanın birləşdirmə siyasətinin əleyhinə olan Qarabağlı İbrahim xan, şəkili Məhəmməd Həsən xan, avarlı Ümmə xan və b. iştirak edirdi [2, s. 200-210].

İbrahimxəlil xanın üstünlük qazanmağa çalışdığı ərazilərdən biri də Gəncə xanlığı idi. Ş.Burnaşev yazırdı: «Gəncəni ələ keçirən İbrahimxəlil xan Məhəmməd xanı [Gəncə hakimi nəzərdə tutulur - N.R.] əsir aldı" [10, s. 8]. 1786-cı ildə Cavad xanı hakimiyyət başına gətirməklə İbrahimxəlil xan Gəncədə hakimiyyət məsələsini müvəqqəti də olsa öz xeyrinə həll etmiş oldu.

İbrahimxəlil xanın Məhəmməd Səidin yerinə qardaşı Ağası xanı Şamaxı xanlığı taxtına çıxarmağa çalışması Fətəli xanı narahat etdi. Bu məsələdə Qarabağ xanının mövqeyini Lənkəran xanı da müdafiə edirdi. Fətəli xan 1786-cı ilin əvvəllərində İbrahmxəlil xandan Şamaxı xanlığının daxili işlərinə qarışmamağı tələb etsə də rədd cavabı aldı [8, s. 27-28]. Məqsədinə təhdid yolu ilə nail ola bilməyəcəyini görən Fətəli xan diplomatik üsullara əl ataraq Qarabağ və Lənkəran xanlarına qiymətli hədiyyələr göndərdi və nəticədə, sonuncular Ağasi xanı müdafiə etməkdən əl çəkdilər.

Azərbaycan xanlıqları arasındakı bu kimi çəkişmələr onların müstəqilliyini saxlamağa böyük zərbə vurur və iri dövlətlərin bu əraziyə təcavüzünü gücləndirirdi.

Vaxtilə Gürcüstanda Səfəvilərin və sonra Əfşarların vassalı kimi hökm sürən və Rusiya ilə yaxınlaşma xətti götürən Kartli çarı Teymuraz isə İranın zəifləməsindən - Nadir şahın ölümündən istifadə edərək Azərbaycan ərazilərini tutmağa çalışırdı. O bu məqsədlə 1748-49-cu illərdə Gəncəyə və hətta Qarabağ xanlığına hücüm etmişdi. Lakin Teymurazdan fərqli olaraq Kartli-Kaxetiya çarı II İrakli İbrahimxəlil xanla münasibətlərin qaydaya salınmasına xüsusi diqqət yetirirdi. Rusiyaya arxalanan Kartli-Kaxetiya çarlığının İbrahimxəlil xana hərbi kömək göstərməsindən narahat olan Quba xanı II Yekaterinaya aşağıdakı məzmunda məktub göndərir: "Biz müxtəlif yerlərdən hərbi qüvvə toplayıb İbrahimxəlil xana qarşı göndərdiyimiz vaxt gürcü hakimi II İraklii öz oğlunu gürcü qoşunu ilə onun köməyinə göndərdi" [9, s. 38].

XVIII əsrin 60-80-ci illərində Avropa ölkələrinin xarici siyasətində yeni müharibələrin, habelə mürəkkəb diplomatik münaqişələrin başlamasına səbəb olan Şərq məsələsi ümdə yer tuturdu. Rus diplomatlarının, guya Qafqaz məsələlərinin onlar üçün az əhəmiyyət daşıması tərzindəki davranışları, Kiçik-Qaynarca (1774) sülhündən dərhal sonra Rusiyanın "Şərq siyasəti"ndə böyük hazırlıq dövrünə qədəm qoydu [26, s. 30].

XVIII əsrin II yarısında bütün Avropa ölkələrini bürüyən sənaye inqilabının, metropoliyaların xammal mənbələri axtarışına təkan verdiyi bir vaxtda, Avropa müstəmləkəçiləri Şərq ölkələrinin, o cümlədən Azərbaycanın sərvətlərini ələ keçirməyə can atır, müxtəlif ticarət şirkətləri təsis etmək yolu ilə bu ölkələri əvvəlcə iqtisadi, sonra isə siyasi cəhətdən asılı vəziyyətə salmağa çalışırdılar. Azərbaycanda marağı olan Qərb dövlətlərini Rusiyanın bu bölgədə yürütdüyü işğalçılıq siyasəti çox narahat edirdi. [25, s. 7]. Rusiya həm inkişaf etməkdə olan manufaktura sənayesinin ehtiyacını Azərbaycan hesabına ödəməyə çalışır, həm də Azərbaycan Rusiyanın Şərq ölkələri ilə iqtisadi əlaqələrində əsas vasitə ola bilərdi. XVIII əsin 70-ci illərinin sonları - 80-ci illərin əvvəllərində rus diplomatiyasının Cənubi Qafqazda Türkiyəyə qarşı bufer dövlətlər yaratmaq planının həyata keçirilməsində Kartli- Kaxetiya çarı II İrakli mühüm rol oynamalı idi. Rus hökuməti bütün gürcü torpaqlarını özünün himayəsi altında vahid və güclü bir dövlətdə birləşdirmək, eyni zamanda erməni çarlığı yaratmağı planlaşdırırdı. Bu çarlıq Azərbaycanın Qarabağ və Qaradağ xanlıqlarının əraziləri hesabına yaradılmalı idi [23, s. 160-162].

Müstəqilliklərini daim qoruyub saxlamağa çalışan Azərbaycan xanlıqlarının özlərinin müstəqil siyasəti olsa da bu siyasət xanlığın mənafeyini hər şeydən yüksək tutmaq, iki böyük imperiya - Rusiya və Türkiyə münasibətlərindən xanlıqların müstəqilliyini möhkəmləndirmək üçün istifadə etmək məqsədi daşımışdır.

Məqsədlərinə nail olmaq üçün Azərbaycan torpaqlarını işğal etməkdə Rusiyaya başlıca maneə isə Osmanlı imperiyası idi. XVIII əsrin II yarısından, yəni Azərbaycan xanlıqlarının yarandığı dövrdən başlayaraq xanlıqların Osmanlı dövləti ilə xüsusi münasibətləri olmuşdur.

Şimal qonşunun - Rusiya dövlətinin yeni ərazilər tutmaq üçün cənuba doğru irəliləməsi, Rusiya-Gürcüstan hərbi blokunun yaranması Azərbaycan xanlıqları üçün təhlükəyə çevrildiyi belə bir vaxtda, müstəqil Azərbaycan xanlıqları heç kəsdən asılı olmaq istəmir və təhlükə qarşısında Osmanlı dövlətinə müraciət edirdilər. Qərbi Avropa dövlətlərinin, xüsusilə İngiltərənin dəstəklədiyi Osmanlı hökuməti hərbi qüvvə və siyasi təsir baxımından başqa xanlıqlardan fərqlənən Qarabağ və Quba xanlıqları ilə daim diplomatik əlaqələr saxlayırdı.

Qarabağ xanlığının xarici siyasətində də Osmanlı imperiyası mühüm yer tuturdu. 1787-ci ildə Qarabağ xanı İbrahimxəlil xanın məktubu əsasında Ərzurum və Çıldır valiləri, Qars mühafizə və Bəyazid mütəsərriflərinin adından İstanbula göndərilən məktublarda xanlar arasındakı münasibətlərdən bəhs olunurdu. 1791-ci ildə isə Osmanlı sarayında İbrahimxəlil xan və Avar hakimi Ümmə xanın elçiləri yüksək ehtiramla qəbul olunmuşdu.

Azərbaycan xanlıqlarını Osmanlı dövləti ilə dil və din birliyindən başqa, əsasən şimal təhlükəsi daha çox yaxınlaşdırırdı. İ.Yücelə görə də Osmanlı imperiyası Qafqazda Rusiya-Gürcüstan blokuna qarşı müsəlman dövlətlərinin ittifaqını yaratmağa çalışırdı [26, s. 27-33].

Qarabağ xanlığı ilə Osmanlı dövləti arasında ilk yazışmalar 1769-cu ildən başlamışdır. 1769-cu ildə sultan III Mustafanın fərmanı ilə türk elçilərinin Gəncə, Təbriz, Dərbənd, İrəvan, Tiflis, Kabardin feodallarının yanında olması [11, s. 328], 1771-ci ildə isə İbrahimxəlil xanın adamı Hacı Ağaya xələt, kürk və xərclik verilməsi haqqında məlumat verilir [27].

Qafqaz şahmat taxtasındakı Rusiya, Osmanlı və İran kimi əsas geosiyasi oyunçular arasında siyasi tarazılığı saxlamağa çalışan İbrahimxəlil xan Rusiya və Osmanlı dövlətlərilə diplomatik əlaqələr yaradır, həmin dövlətlər də özlərinin Qafqaz siyasətlərini müəyyənləşdirərkən Qarabağ xanlığının gücünü və nüfuzunu nəzərə alırdılar.O zamankı İran sərkərdələrinin və o cümlədən şahın özünün rəyinə görə, alınmaz qala olan Şuşa şəhəri iranlılar üçün Zaqafqaziyanın açarı, ruslar üçün isə qapısı hesab edilirdi.

Lakin bu iki imperiyanın Qarabağ xanlığına münasibəti heç də eyni səciyyə daşımırdı. Əgər Osmanlı dövləti xanlığa qarşı heç bir ərazi iddiası irəli sürmür, yalnız onun hərbi gücündən öz siyasi maraqlarını həyata keçirmək üçün istifadə etməyə çalışırdısa, Rusiya isə əksinə, Cənubi Qafqazı, o cümlədən Qarabağ xanlığının ərazisini tutmaq niyyətində idi.

Kartli-Kaxetiya çarlığınıı gücləndirmək və Qarabağda sünni dövləti yaratmaq planını reallaşdırmaq siyasəti yürüdən rus hökuməti ilə Qarabağ xanlığı arasında münasibətlər demək olar ki, həmişə gərgin olaraq qalırdı [32, s. 140].

Qarabağ xanlığına gələn Osmanlı elçisinin məktubunda ruslara qarşı birlikdə mübarizə aparmaq istədikləri bildirilirdi [12, s. 76]. Bu məqsədə nail olmaq üçün Osmanlı sultanı I Əbdülhəmidin Qarabağ hökmdarı İbrahimxəlil xana göndərdiyi [24, s. 44-50] məktubda Qarabağ xanına Rusiya imperiyasına qarşı vuruşmağa hazır olmaq təklif olunurdu.

Azərbaycan xanlıqları ilə Osmanlı dövlətinin qarşılıqlı münasibətləri 1768-1774-cü illərdə baş vermiş Rusiya-Türkiyə müharibəsi dövründə daha da güclənmişdir. Osmanlı imperiyası Qafqazda ona yönəlmiş Rusiya-Gürcüstan hərbi blokuna qarşı müsəlman dövlətlərinin ittifaqını yaratmağa çalışır, Rusiya hakim dairələri isə Türkiyə ilə müharibə getdiyi vaxt (1768-1774) Azərbaycan xanlıqlarını öz tərəfinə çəkməyə cəhd göstərirdilər [23, s. 156-157]. Həmin dövrdə Azərbaycan xanlıqlarının Osmanlı imperiyası ilə yaxınlaşması prosesini təşvişlə izləyən Rusiya bu münasibətləri pozmaq üçün müxtəlif tədbirlərə əl atır, ən başlıcası isə Azərbaycan sərhədlərinə yaxın ərazilərdə rus qoşunlarının sayını artırırdı.Qarabağ xanı İbrahim Xəlil xan öz sədaqətli vəziri Molla Həsəni Türkiyə sultanının yanına göndərərək - "Mərhəmətli sultanım, əgər sizdən gözlədiyimiz köməyi alsaq biz düşmənlərimizi məhv edərik" deyə bildirirdi [5, s. 21].

Sənədlərdən göründüyü kimi Rusiya imperiyasının Azərbaycan sərhədlərinə yaxın ərazilərə Dərbəndə, İran sərhədlərinə qoşun çıxarmasından narahat olan Azərbaycan xanları Osmanlı dövlətindən bu təhlükənin qarşısını almaqda onlara kömək etməsini xahiş edirdilər. Lakin, Osmanlı hökuməti bu müraciətlər qarşısında Azərbaycan xanlıqlarına sadəcə ehtiyatlı olmağı, şəriət qanununa əsasən birləşməyi məsləhət görürdü. Çünki həmin dövrdə Osmanlı dövləti özü Rusiyadan ehtiyat edir, nəticədə isə Rusiyanın Cənubi Qafqazda strateji siyasəti fəallaşırdı.

Diplomatik danışıqlar zamanı, əlbəttə, Osmanlı sarayında xidmət göstərən, İslamı qəbul etmiş, hemşinlər adlanan ermənilər yaddan çıxarılmamalıdır. İslam dininə etiqad edən erməniləri hemşinlər adlandırırdılar. Rusiya, Fransa, İngiltərə və İrana gizli casusluq edən bu ermənilər sultana təsir göstərərək, Osmanlı sarayının xanlıqlara dəstək göstərməsinin dövlət üçün böyük təhlükə yaradacağını iddia edirdilər. Həmçinin, 1794-cü ildə Qarabağ hökmdarı İbrahimxəlil xanın sultana göndərdiyi məktubda İranda hakimiyyəti ələ keçirmiş Ağa Məhəmməd xan Qacarın Azərbaycan xanlıqlarını tutmaq niyyətindən xəbər verir, xanlıqların bu təhlükəni sovuşdurmaqda Osmanlı sultanının yardımına ehtiyacları olduğunu qeyd edirdi [28, s. 265]. Lakin, XVIII əsrin II yarısında Osmanlı dövləti Rusiya ilə apardığı müharibələrdə itkilərə məruz qalaraq hərbi cəhətdən zəiflədiyinə görə, Ağa Məhəmməd xan tərəfindən sərhədlərinin təhlükəsizliyini təmin etmək üçün onunla müqavilə bağlamışdı. Bu müqavilənin pozulmaması üçün ermənilər ciddi-cəhdlə çalışdılar və elə buna görə də İbrahim xanın Osmanlı imperiyasının himayəsi altına keçmək niyyətini bildirdiyi məktubları İstanbulda müsbət qarşılansa da, Osmanlı sarayının Qarabağ xanına real yardım göstərməsi qeyri-mümkün idi.

Qeyd etdiyimiz kimi müəyyən səbəblər ucbatından Osmanlı imperiyası Azərbaycan xanlıqlarına konkret hərbi yardım göndərə bilməsə də türk sultanı xanlıqlarla olan münasibətlərini qoruyub saxlamağa çalışır, belə bir vəziyyətdə Azərbaycan xanlıqları arasındakı çəkişmələrin davam etməsi Osmanlı sultanını xeyli narahat edirdi. 1779-cu ilin 27 mayında Çıldır valisi Süleyman paşa İstanbula göndərdiyi məktubunda Osmanlı dövlətindən Dağıstan hakimlərilə Qarabağ xanı İbrahimxəlil xan arasındakı düşmənçiliyin aradan qaldırılmasına kömək etməyi xahiş etmişdir. Məktubda deyilirdi: "Şirvan xanı Dağıstan əmirlərilə birlikdə Dövləti Aliyyəyə sadiq olan Qarabağlı İbrahim xana hücum etməyə hazırlaşdığından, Dağıstan əhalisini bu hücumdan əl çəkdirmək üçün Dövləti Aliyyədən

onlara gərəkli əmrin göndərilməsi vacibdir" [12, s. 97-99]. Nəticədə, 1779-cu ilin iyulunda Sultan I Əbdülhəmid (1774-1789) "Şirvan və Dağıstan xanlarının Qarabağa hücumunun qarşısının alınması üçün" iki dəfə fərman verir [5, s. 21]. Bu haqda C. Gökçə yazır: "Dövləti Aliyyə xanlar arasındakı anlaşılmazlıqların aradan qalxmasını istəyirdi. Onun başlıca məqsədi Rusiyanın bu vəziyyətdən istifadə edərək hücuma keçməsindən yaranacaq təhlükənin xanlara anlatılmasıdır" [12, s. 110]. Beləliklə, xeyli dərəcədə zəifləmiş hərbi və iqtisadi potensiala malik olan Osmanlı sarayı Cənubi Qafqazdakı fəal xarici siyasəti bir növ müdafiə mövqeyi ilə əvəz etmişdi.

O dövrdə Qarabağ xanlığında baş verən siyasi prosesləri Azərbaycanın başqa xanlıqlarında da müşahidə etmək olardı. Xanlıqlar arasında gedən çəkişmələr onları zəiflədir, vahid dövlət quruluşunun yaranmasını ləngidir, xalqın sülh və əmin-amanlıq şəraitində yaşamaq intizarını uzadırdı. Nə qədər acı olsa da, tariximizin bu dövrü xalqımızın alın yazısı idi.

1804-cü ilin yanvarında silah gücü ilə Gəncə xanlığının ələ keçirilməsindən sonra Rusiya imperiyası Azərbaycanın şimal xanlıqlarına qarşı hücumunu davam etdirdi. Yeni hədəf Qarabağ xanlığı idi.

İbrahimxəlil xan artıq qocalmışdı və o sarayda baş verən hadisələrə tam nəzarət edə bilmirdi. Qarabağ xanlığının gələcəkdə müstəqil qalması məsələsini xəyala belə gətirmək mümkün olmadığına görə, Şuşada xanın qocalığından istifadə edən əyanlar bütün idarə işlərini öz əllərinə alaraq bir-birinə düşmən olan iki dəstəyə bölünmüşdülər [14, s. 41]. Sarayda hakimiyyət uğrunda iki qruplaşma arasında mübarizə gedirdi. Qruplardan biri rusların yenidən Cənubi Qafqaza gələcəklərini gözləyərək heç bir vəchlə Qacarlara tabe olmaq istəmir, Mirzəlibəy, Feyzibəy və başqalarının daxil olduğu digər qrup isə Qacarları hər vasitə ilə razı salmağa çalışırdı. Sonda məhz bu qrup üstünlük əldə etdi. Məlumdur ki, 1803-cü ildən Rusiya Azərbaycan torpaqlarının işğalına başlamışdı. Həmin ilin yayından Car-Balakən camaatı tabe edilmiş, 1804-cü il yanvarın 2-də isə Gəncə qalası həmlə ilə alınmışdı. Rus qoşunlarının komandanı general Sisianov İbrahimxəlil xandan Kürəkçay yaxınlığındakı düşərgəsinə gəlib Rusiya təbəəliyinə keçmək haqqında andlı müqaviləni qəbul etməyi tələb etdi. Müasir silahlarla təchiz edilmiş rus ordusuna müqavimət göstərməyi qeyri-mümkün hesab edən və gəncəli Cavad xanın aqibətini yaşamaq istəməyən İbrahimxəlil xan bu ultimatumla razılaşmaq məcburiyyətində qaldı [33, s. 62-63].

1805-ci il Kürəkçay müqaviləsi ilə Qarabağ xanlığı faktik olaraq Rusiyaya ilhaq edildi. İmzalanan 11 maddədən ibarət müqavilənin şərtlərinə görə, Qarabağ xanı Rusiya çarının vassalı olmağına razılıq verir, müstəqil xarici siyasət hüququndan məhrum edilirdi [31, s. 18]. *Əslində bu aktı imzalamaqla İbrahimxəlil xan öz hüquqlarının bir hissəsindən əl çəkməklə Qarabağın bütövlüyünü qorumağa çalışmışdı. Lakin tarix boyu imzaladığı bütün hüquqi sənədləri və götürdüyü bütün təhəddüdləri heçə sayan ənənəvi imperialist rus diplomatiyası bu dəfə də özünü yanıltmadı.* Bir qədər sonra rus hökuməti xanlıqları ləğv edib rus zabitləri tərəfindən idarə olunan əyalətlərə çevirməyə başladı. 1822- ci ildə isə Qarabağ xanlığının varisi Mehdiqulu xan İrana qaçmağa vadar edildi və Qarabağ xanlığı ləğv olundu. Bundan sonra İran və Türkiyədən ermənilərin Qarabağ ərazisinə köçürülməsi prosesi gücləndi.

### *Nəticə*

XVIII əsrin ortalarında bölgədə marağı olan dövlətlər arasında münasibətlərin toqquşduğu bir zamanda Azərbaycan xanlıqları öz müstəqilliklərini qoruyub saxlamaq, qonşu dövlətlərlə qarşılıqlı münasibətlərini tənzim etmək üçün özünəməxsus xarici siyasət yeridirdilər. Xanlıqların xarici siyasət xəttinin obyektiv təhlili həmin dövrün beynəlxalq vəziyyətini və onun bu prosesə göstərdiyi təsirin vacibliyini üzə çıxarır. Lakin nəzərə almaq lazımdır ki, qeyd olunan vaxt Azərbaycanın geosiyasi mövqeyi səbəbindən Azərbaycan

xanlıqlarının daxili siyasi vəziyyəti bilavasitə onların xarici siyasət xəttini müəyyən edirdi. Xanlıqların xarici siyasətinin başlıca istiqamətlərdən birini öz hakimiyyətini möhkəmləndirmək, onu qorumaq, xarici iqtisadi əlaqələri təmin etmək təşkil edirdi. Lakin xanlıqlar arasındakı çəkişmələr onların inkişafına böyük zərbə vururdu.

ƏDƏBİYYAT

1. Алиев Ф.М. Миссия посланника русского государства А.П.Волынского в Азербайджане. Баку, «Элм», 1979.
2. Абдуллаев Г.Б. Азербайджан в XVIII веке и взаимоотношения его с Россией. Баку, изд-во АН Азерб. ССР, 1965.
3. Абасов Фахри Митат оглу. Гарабагское ханство. Баку, «Тахсил», 2007.
4. Ağamalı Yalçın Fəzail oğlu. Qarabağ xanlığının qonşu xanlıqlar və dövlətlərlə münasibətləri. "Azərbaycan Ensiklopediyası", Bakı, 1998, 142 s.
5. Azərb. EA Tarix İnstitutunun elmi arxivi sənəd 1795/1/, s. 21.
6. Аракелян А. Карабах до завоевания российским царизмом. // Исторический журнал. 1938, № 10, s.76.
7. Бакиханов А.А. Гюлистани-Ирам (редакция, комментарии, примечания и указатели академика З.М.Буниатова). Баку, Элм, 1991, 304 с.
8. Бутков П.Г. Материалы для новой истории Кавказа с 1722 по 1803 г. ч. III. Санкт-Петербург. 1869, 601 с.
9. Bronevskiy S.B. "Noveyşie qeoqrafiçeskie i istoriçeskie izvestiya o Kafkaze, M. 1823, c. II, 429 s.
10. Бурнашев С. Описание областей Адербиджанских в Персии и их состояния. Курск, 1793, 27 с.
11. Buxarov D. Rossiya i Turtsiya. SPb. 1878, s. 34. Abdullaev Q.B. Azerbaydjan v XVIII veke i vzaimootnoşenıya eqo v Rossiey. Bakı, 1965, 497 s.
12. Cemal Gökce. Kafkasya ve Osmanli Impratorlugunun Kafkasya siyaseti, Istambul, 1979, 253 s.
13. Dəlili H.Ə. Qarabağ xanlığının banisi Pənahəli-xan haqqında yeni məlumat // Azərb. SSR EA Xəbərləri, Tarix, fəlsəfə, hüquq seriyası (TFHS), 1971, №1.
14. Əhməd bəy Cavanşir. Qarabağ xanlığının 1747-1806-cı illərdə siyasi vəziyyətinə dair. Qarabağnamələr. I kit. Bakı, Yazıçı, 1989.
15. Əliyev F.M., Əliyev M.M. Naxçıvan xanlığı. Bakı, 1996,106 s.
16. Gəncə: tarixi oçerk. Bakı, Elm, 1994, 152 s.
17. Kərim Ağa Fateh. "Şəki xanlarının müxtəsər tarixi".Hacı Seyid Əbdülhəmid. Şəki xanları və onların nəsilləri. Bakı, 1993, 32 s.
18. "Qarabağnamələr", Mirzə Adıgözəl bəy Cavanşir. "Qarabağnamə" 2. Bakı, 1991
19. Левиатов В.Н. Очерки из истории Азербайджана в XVIII веке. Баку, 1948, 228 с.
20. Mirzə Adıgözəl bəy. Qarabağnamə /Qarabağnamələr. I kit. Bakı, "Şərq-Qərb", 2006, 216 s.
21. Mirzə Camal Cavanşir Qarabaği. Qarabağ tarixi /Qarabağnamələr. I kit. Bakı, "Yazıçı", 1989.
22. Mirzə Yusif Qarabaği. Tarixi Safı //Qarabağnamələr. II kitab, Bakı, 1991.
23. Маркова О.П. Россия, Закавказья и международные отношения в XVIII веке. Москва, 1966, 324 с.
24. Məmmədov H.M. Osmanlı imperiyasının xarici siyasətində Azərbaycan xanlıqları // Azərb.SSR Elmlər Akademiyasının 232 Xəbərləri, tarix, fəlsəfə və hüquq seriyası, 1989, №3, s. 44-50.
25. Noviçev A.D. Istoriya Turtsii. c I, L. 1963/78.

26. Nəcəfli G.C. Azərbaycan xanlıqlarının Osmanlı dövləti ilə siyasi əlaqələri (XVIII əsrin II yarısı). Bakı, “Nurlan”, 2002, 132 s.
27. Osmanlı sənədlərində Qarabağ. Bakı, “Şərq-Qərb”, 2011, 616 s. 95 BOA, C.DH 11041, bax: 13.
28. Osmanlı devleti ilə Azərbaycan türk xanlıklan arasında münasibetlere dair arşiv belgeleri. Karabağ-Şuşa, Nahçivan, Bakü, Gence, Şirvan, Şeki, Revan, Kuba, Hoy. (1578-1914). Ankara, Başbakanlik Basımevi, 1992, c. I, 427 s; c. II, 481 s.
29. Обозрение Российских владений за Кавказом. ч. III, Санкпетербург, 1836, 397 s.
30. Rzaqulu bəy Mirzə Camal oğlu. Pənah xan və İbrahim xanın Qarabağda hakimiyyətləri və o zamanın hadisələri "Qarabağnamələr", II kitab, Bakı, 1991.
31. Rzayev A.Ə. “Azərbaycan tarixi XIX-XXI əsrin əvvəli”, Bakı Universiteti Nəşriyyatı, 2010.
32. Tofiq Mustafazadə. Qarabağ xanlığı. Bakı, «Sabah», 2009, 333 s.
33. Zemfıra Hacıyeva. Qarabağ xanlığı: sosial- iqtisadi münasibətlər və dövlət quruluşu. Bakı, «Təhsil», 2007, 254 s.

УДК 908 (479.24

*Наргиз Айдын кызы Расулова*
*Гянджинский Государственный Университет,*
*Гянджинское Отделение НАНА*

## КАРАБАХСКОЕ ХАНСТВО НА ДИПЛОМАТИЧЕСКОЙ АРЕНЕ АЗЕРБАЙДЖАНА XVIII ВЕКА

*РЕЗЮМЕ*

*Ключевые слова:* Азербайджан, Карабахское ханство, Панахали-хан, Ибрагим Халил-хан, Россия, оккупация

Среди новообразованных азербайджанских ханств в середине XVIII века важное место занимало Карабахское ханство, основанное Панахали-ханом (1747–1763), представителем племени сарджалы племени джеваншир, занимавшим значительную часть территории Азербайджана. Победы над врагами, значительно превосходящими его по силе, умножали славу и влияние Панахали-хана. В период правления Ибрагим-Халил-хана (1769–1806) Карабахское ханство достигло наивысшего расцвета своего могущества.

Во внешней политике Карабахского ханства особое место занимали отношения с Урмийским, Шекинским и Губинским ханствами, а также с Османской и Российской империями, стремившимися к объединению азербайджанских земель. Османское государство, опасаясь России, перешло к оборонительной позиции на Южном Кавказе, что усилило агрессивную политику России в регионе. После захвата Гянджинского ханства в январе 1804 года следующим объектом нападений Российской империи стало Карабахское ханство. Считая невозможным противостоять русской армии, оснащённой современным оружием, в то время как дворянские группировки вели бои в Карабахском дворце, Ибрагим-Халил-хан был вынужден согласиться на присоединение Карабахского ханства к России по Кюрекчайскому договору 1805 года.

UDC 908 (479.24)

*Nargiz Aydin Rasulova*
*Ganja State University,*
*Ganja Branch of ANAS*

# KARABAKH KHANATE IN THE DIPLOMATIC ARENA OF XVIII CENTURY AZERBAIJAN

*SUMMARY*

*Key words:* Azerbaijan, Karabakh Khanate, Panahali Khan, Ibrahim Khalil Khan, Russia, occupation

Among the newly formed Azerbaijani khanates in the middle of XVIII century, Karabakh Khanate, founded by Panahali Khan (1747-1763), a member of the Sarijali tribe of the Javanshir tribe, held a prominent position, controlling a significant portion of Azerbaijani territory. Panah Ali Khan's triumphs over vastly more powerful enemies greatly enhanced his reputation and solidified his authority. During the reign of Ibrahim Khalil Khan (1769-1806), Karabakh Khanate reached the highest peak of its power.

In the foreign policy of Karabakh Khanate, relations with the Urmia, Sheki, and Guba khanates, as well as the Ottoman and Russian empires, which were trying to achieve the unification of Azerbaijani lands, occupied a special place. The Ottoman state, wary of Russia, shifted to a defensive position in the South Caucasus, which intensified Russia's aggressive policy in the region. After the occupation of the Ganja Khanate in January 1804, the next target of Russian Empire was Karabakh Khanate. Considering it impossible to resist the Russian army equipped with modern weapons while the noble factions were fighting in Karabakh palace, Ibrahim Khalil Khan was forced to agree to the annexation of Karabakh Khanate to Russia with the Treaty of Kurekchay in 1805.

***Daxil oldu: 10.07.2025-ci il***